# Nəsimi soraqlı tədbirlər...









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 6-da Şamaxı rayonunda Şahxəndan türbəsinin ətrafında aparılan abadlıq işləri ilə tanış olublar.

Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov görülən işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verib.

Son illər Azərbaycanda tarixi, mədəni, dini abidələrin bərpası istiqamətində əhəmiyyətli layihələr icra olunur. Bu layihələr davamlı xarakter almaqla ümumilikdə, tarixi-mədəni irsimizin qorunub-saxlanılmasında, gələcək nəsillərə ötürülməsində çox mühüm rol oynayır. Bu baxımdan Şamaxıda Şahxəndan türbəsinin ətrafında geniş abadlıq işlərinin aparılması da xüsusi əhəmiyyəti ilə seçilir. Yaxın vaxtlarda isə abidənin konservasiyasına başlanacaq.

Milli-mənəvi dəyərlərimizin qorunması və təbliğinə xüsusi önəm verən, ölkə və dünya əhəmiyyətli tarixi abidələrin bərpası, Azərbaycan mədəniyyətinin xaricdə tanıdılması sahəsində böyük addımlar atan Heydər Əliyev Fondu tərəfindən "Nəsimi ili" çərçivəsində dahi şairin qardaşı Şahi Xəndanın dəfn olunduğu Şamaxı rayonundakı Şahxəndan qəbiristanlığındakı türbənin ətrafında aparılan geniş abadlaşdırma işləri zamanı böyük hissəsi torpağın altında qalan türbənin ətrafı qazılaraq torpaq başqa əraziyə daşınıb, abidədə olduğu kimi səkkizguşəli döşəmə salınıb, türbəni ziyarət edənlərin rahatlığı üçün hərtərəfli şərait yaradılıb.

Türbənin ətrafında təmizlik və abadlıq işləri avstriyalı bərpaçı-memar Erik Pumerin rəhbərliyi ilə aparılıb.





Dahilər qərinələr sonra xatırlanacaqlarını bilir və bunu yaradıcılıqlarında ismarışlayırlar – əgər dahilik yaradan tərəfindən onlara əta olunubsa, bu təəccüblü deyil. İmadəddin Nəsimi (1369–1417) misallı söz və düşüncə sahiblərimizin tariximizdəki varlığının fərqinə varanda özümüzə heyranlıq hissindən vaz keçmək mümkünsüzləşir – doğrudan da, coğrafi miqyas etibarilə o qədər də böyük olmayan məmləkətimizin bəşər tarixinə bəxş etdiyi dühaların miqyası ölçüyəgəlməz dolğun təəssürat doğurmaq iqtidarındadır.

İlboyu ölkəmizdə və yaxın-uzaq diyarlarda müxtəlif tədbirlər timsalında Nəsiminin İnsan eşqinin işığı saçıldı. M.F.Axundzadə adına Milli Kitabxanada "İmadəddin Nəsimi – 650" adlı sərgi açıldı. 300-dək çap nümunəsinin yer aldığı sərgidə Nəsiminin əlyazmaları, daşbasma üsulu ilə ərsəyə gəlmiş kitabları, əsərlərinin müxtəlif nəşrləri, haqqında işıq üzü görən elmi, publisist kitab və məqalələr nümayiş etdirildi.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Rəssamlar İttifaqı ilə birlikdə İmadəddin Nəsiminin yaradıcılığına həsr olunmuş "Şairə ithaf" adlı açıq respublika rəsm müsabiqəsi elan etdi. Müsabiqədə Azərbaycan Rəssamlar İttifaqının üzvləri, o cümlədən respublikada fəaliyyət göstərən ali və orta ixtisas məktəblərinin magistr tələbələri iştirak etdilər.

ADMİU-da Nəsimiyə ithaf olunan "Hüsnü-cəmal, əqli kamal" adlı ali məktəblərarası bədii qiraət müsabiqəsi keçirildi, həmçinin universitetdə şairin yaradıcılığına həsr edilən "Cahana sığmayan şair" mövzusunda elmi-praktik konfrans baş tutdu.

Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının Açılış mərasimi üçün xüsusi olaraq hazırlanmış.

Azərbaycan mədəniyyətinə və bu coğrafiyada sivilizasiyaların inkişafına, tarixi abidələrin və irs məkanlarının şahid olduğu tarixə işıq salınması məqsədilə hazırlanmış "İrsin sonsuz ruhu" ("Timeless spirit of heritage") adlı mədəni proqramın əsas təşkilatçısı Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi idi. Mədəni proqramın yaradıcı prodüseri Rusiyanın məşhur prodüseri Andrey Baltenko, musiqi proqramının müəllifi isə dünyaca məşhur azəri mənşəli britaniyalı musiqiçi Sami Yusuf olan mədəni proqram doqquz elementdən ibarət olmuşdur. Bu elementlər "Qobustan", "Atəşgah", "Nəsimi poeziyası", "Rəqs edən ürəklər", "Xalçalar", "Şirvanşahlar Sarayı", "Novruz bayramı", "Şəki Xan Sarayı" və "Azərbaycanın gələcəyə baxışı" mövzularına həsr olunmuşdu. "Girdim yarın bağçasına" xalq mahnısı Əməkdar artist Sevda Ələkbərzadə, "Nəsimi poeziyası" kompozisiyasını Əməkdar artist Təyyar Bayramov, onun oğlu Kənan və aşıq Samirə ilə duetdə, "Şirvanşahlar Sarayı" isə instrumental əsər olaraq təqdim edildi. İfaçıları 57 nəfərdən ibarət orkestr və xor kollektivi müşayiət edirdi. Son günlərdə Sami Yusuf konsertin "Şirvanşahlar Sarayı", "Girdim yarın bağçasına" və "Nəsimi poeziyası"na həsr olunmuş hissələrini öz rəsmi YouTube kanalında paylaşmışdır. Konsertdən digər görüntülər yaxın zamanda yayımlanacaqdır. Sami Yusuf bütün kompozisiyaları "Azərbaycan" albomuna daxil edib.

Azərbaycan Respublikası Prezidentinin 11 yanvar tarixli Sərəncamı ilə 2019-cu il ölkəmizdə "Nəsimi ili" elan edilib. Bu və Prezidentin 2018-ci il 15 noyabr tarixində imzaladığı Sərəncam Azərbaycan dilində yazıb-yaradan mütəfəkkir şairin 650 illik yubiley ilində Onun xatirəsinə və irsinə göstərilən ən böyük ehtiram və sevginin bariz nümunəsidir. 2017-ci ildə isə Nəsiminin vəfatının 600 illiyi Azərbaycan dövlətinin təşəbbüsü ilə UNESCO-nun yubileylər proqramına salınaraq bu təşkilat səviyyəsində qeyd olunmuşdu. 2018-ci ilin sentyabrında isə Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ölkəmizdə ilk dəfə Nəsimi – şeir, incəsənət və mənəviyyat festivalı keçirildi. Bu il də bu festival ənənəsi təbii ki, davam etdi...

Beynəlxalq Mətbuat Mərkəzində "İmadəddin Nəsimi və özbək ədəbiyyatı" mövzusunda beynəlxalq elmi konfrans keçirildi. "Kaspi" qəzeti, eyniadlı təhsil şirkəti və Özbəkistandakı səfirliyimizin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) birgə layihəsi olaraq təşkil edilən konfrans mütəfəkkir şairin 650 illik yubileyinə və "Nəsimi ili"nə həsr olunmuşdu.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunan "İmadəddin Nəsimi: sələflər və xələflər – orta əsrlər əlyazmaları və Azərbaycan mədəniyyətinin tarixi problemləri" mövzusunda XVII elmi-nəzəri konfrans keçirildi.

İmadəddin Nəsiminin 650 illiyi və UNESCO üzrə Azərbaycan Milli Komissiyasının 25 illiyi münasibətilə Berlin şəhərində konsert keçirilib. Xalq artisti Mənsum İbrahimovun rəhbərliyi ilə "Qarabağ" muğam qrupunun ifasında Nəsiminin qəzəllərindən ibarət musiqili proqram təqdim olunub. Tədbirdə Almaniyanın ictimai, mədəni dairələrinin, diplomatik korpusun və Azərbaycan diasporunun nümayəndələri iştirak ediblər. Tədbir çərçivəsində Azərbaycan mədəniyyətinə və incəsənətinə dair əyani materiallar nümayiş olunub və iştirakçılara paylanılıb.

Helsinki şəhərində də İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş ədəbi-bədii konfrans keçirilib. Tədbir Finlandiyada fəaliyyət göstərən diaspor təşkilatlarının birgə layihəsi olaraq – Finlandiya Azərbaycan Assosiasiyasının sədri Vasif Muradlının təşəbbüsü, Azərbaycanlı Qadınlar Cəmiyyətinin, Finlandiya Azərbaycan Gənclər Birliyinin birgə təşkilatçılığı ilə reallaşıb. Konfransda Finlandiya Xarici İşlər Nazirliyinin Qafqaz ölkələri üzrə nümayəndəsi Max Hatvala, başqa rəsmilər iştirak ediblər. Məlumat verilib ki, Finlandiyada Avropa Ədəbi Tərcüməçilər İttifaqının (SİETL) üzvü Tahirə Cəfərovanın təşəbbüsü və redaktorluğu ilə "Gövhəri-laməkan mənəm" adlı Azərbaycan poeziya antologiyası fin dilinə tərcümə olunaraq çap edilib. Antologiyada Əfzələddin Xaqanidən dövrümüzə qədər Azərbaycan şairlərinin yaradıcılığı əksini tapıb. Topluya daxil edilən poetik əsərləri Finlandiyanın tanınmış şairləri – "Finlandiya" mükafatı laureatı Xannu Myakelya, Ömər Xəyyamın əsərlərinin tərcüməçisi kimi tanınan Leyevu Lehto, həmçinin Yukka Malnilen, Timo Malmi və Tahirə Cəfərova tərcümə ediblər.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının təşkilatçılığı ilə bəstəkarlar üçün "Nəsimi romans" adlı respublika müsabiqəsi elan olundu. "Nəsimi ili" çərçivəsində reallaşan müsabiqə gənc bəstəkarları şairin irsi ilə tanış etmək, gələcək fəaliyyətlərində peşə inkişafı, yeni musiqili dil və onun inkişaf yollarını axtarmaq məqsədi daşıyır. Müsabiqədə 20–35 yaşarası akademik səviyyədə bəstəkarlıq təhsili olan, habelə bəstəkarlıq ixtisası üzrə məzun olan gənc bəstəkarlardan ibarət Azərbaycan Respublikasının vətəndaşları iştirak etdilər. Layihənin ideya müəllifi və təşkilatçısı BMA-nın prorektoru, professor Yeganə Axundova, bədii rəhbəri BMA-nın rektoru, professor Fərhad Bədəlbəyli, münsiflər heyətinin sədri Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə, üzvləri Əməkdar incəsənət xadimləri Aydın Əzimov, Sərdar Fərəcov, Ceyhun Allahverdiyev, Nazim Mirişli, Cəlal Abbasov və professor Tərlan Quliyevdir.

İspaniyanın Alkala de Enares Universitetində "Erasmus+" proqramı üzrə təhsil alan Bakı Ali Neft Məktəbinin tələbələri tərəfindən bu ölkədəki səfirliyimizin dəstəyi ilə dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illiyi ilə əlaqədar tədbir təşkil olunub. Tələbələr Nəsiminin həyat və yaradıcılığı barədə tədbir iştirakçılarını ətraflı şəkildə məlumatlandıraraq, diqqətə çatdırıblar ki, Azərbaycan Prezidentinin sərəncamı ilə 2019-cu il ölkəmizdə "Nəsimi ili" elan edilib. Tədbir zamanı yaradılmış guşədə ölkəmizin mədəniyyəti, gəzməli-görməli yerləri ilə bağlı materiallar nümayiş etdirilib, habelə dahi şairin 650 illik yubileyinə həsr olunmuş, səfirlik tərəfindən çap etdirilmiş buklet və İspaniyada dövriyyəyə buraxılmış xüsusi poçt markalarının təqdimatı keçirilib. İştirakçılara milli şirniyyatlarımız və Azərbaycan çayı təqdim olunub.

Beynəlxalq Muğam Mərkəzində xanəndə, Xalq artisti Nəzakət Teymurovanın təqdimatında "Qəlb aynası" adlı solo konsert də "Nəsimi ili"nə maraqlı töhfə oldu. Xanəndə və bədii qiraətçilər şairin "Dilbəra, mən səndən ayrı", "Məndə sığar iki cahan", "Qafil, oyan", "Qəlb aynası", "Yarımı buldum" və digər əsərlərini təqdim etdilər.





Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı, Şamaxı Rayon İcra Hakimiyyətinin dəstəyi, İsmayıllı Regional Mədəniyyət İdarəsi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə "Nəsimi ili" çərçivəsində Şamaxı rayonunun sakinləri olan uşaqlar, yeniyetmələr və gənclər arasında "Mənim Şamaxım" adlı rəsm müsabiqəsi elan olundu. Müsabiqəyə Şamaxı rayonundan 70-ə yaxın uşaq, yeniyetmə və gənc qatıldı. Sərgidə nümayiş üçün seçilən işlərin müəllifləri və fəal tədris mərkəzləri diplom və təşəkkürnamələrlə təltif olunub, seçilmiş 20 əsərin müəllifi "Azərbaycanım" Uşaq rəsm festivalı çərçivəsində keçiriləcək müsabiqəyə dəvət edilib.

Təbii ki, "Nəsimi ili"ndə Bakı Kitab Mərkəzində daha bir yaddaqalan görüşün qonağı görkəmli aktyor, Xalq artisti Rasim Balayev olmalı idi... Sənətkarla daha bir görüş sənətsevərlər üçün unudulmaz gün, "Nəsimi ili" üçün isə gözəl töhfə kimi yadda qaldı.

Azərbaycanda keçirilən "Nəsimi ili" ilə əlaqədar Daşkənddəki Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) "Məndə sığar iki cahan" adlı poeziya müsabiqəsi elan etdi.

AMEA-nın Şərqşünaslıq İnstitutunda böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunan növbəti seminar keçirilib. Seminarda mövzu ətrafında çıxışlar olub, fikir mübadiləsi aparılıb.

İsveçrənin www.zeitung.ch portalı "Nəsimi – sülh şairi" sərlövhəli məqalə yerləşdirdi. Məqalənin müəllifi portalın oxucularından Merlinda Dautidir. O, 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan olunduğunu yazaraq isveçrəli oxuculara Nəsiminin şəxsiyyətini və yaradıcılığını təqdim edib.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) "Azərbaycantelefilm" Yaradıcılıq Birliyi yeni bədii televiziya filminin çəkilişlərini başa vuraraq təhvil verib. "Son gecə" adlı film Azərbaycanın dahi şairi İmadəddin Nəsimiyə həsr olunub. "Nəsimi ili" çərçivəsində ərsəyə gələn film Nəsiminin zindanda – edamdan əvvəl son gecəsindən bəhs edir. Film Rəsul Rzanın eyniadlı poeması əsasında çəkilib. Filmdə maraqlı faktlardan biri üç fərqli Azərbaycan şairinin – Nəsimi, Mirzə Ələkbər Sabir və Rəsul Rza obrazlarının eyni səhnədə, eyni kadrda lentə alınmasıdır.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Fikrət Əmirovun "Nəsimi" baletinin uzun fasilədən sonra premyerası olub. Böyük bəstəkarın 1973-cü ildə yazdığı birpərdəli balet (libretto müəllifi Anar) baletmeyster Nailə Nəzirovanın quruluşunda tamaşaya qoyulmuş və 1974-cü ildə respublika Dövlət mükafatına layiq görülmüşdü. Əsərin yenidən səhnəyə qoyulması Opera və Balet Teatrının "Nəsimi ili"nə töhfəsidir.

Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və orqan musiqisi zalında Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Şərqdən Qərbə əsən meh" adlı tədbir keçirildi.

Tədbir böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illiyinə və almanların Cənubi Qafqaza köçməsinin 200 illiyinə həsr olunmuşdu.

Səməd Vurğunun ev-muzeyində "Aytam" Uşaqların Mədəni Maariflənməsi İctimai Birliyinin təşkilatçılığı ilə "Nəsimi ili" çərçivəsində "Zərrə mənəm, günəş mənəm" adlı ədəbi-bədii tədbir keçirilib. Bakı şəhəri Nərimanov rayonundakı 45 nömrəli tam orta məktəbin şagirdlərinin və Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzinin "Gənc bələdçi" dərnəyi üzvlərinin ifasında "Zərrə mənəm, günəş mənəm" adlı ədəbi-bədii kompozisiya təqdim olunub.

Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi (MEMİM), Şamaxı Rayon İcra Hakimiyyəti və İsmayıllı Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə Şamaxı şəhərində "Mədəniyyət həftəsi" təlimləri keçirilib. Təlimlər çərçivəsində Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Şamaxı filialında rayonun ümumtəhsil məktəblərinin ibtidai sinif şagirdləri arasında "Sürətli oxu" yarışması və gənc mədəniyyət işçiləri arasında intellektual oyun keçirilib. "Nəsimi ilinə" həsr olunmuş intellektual oyunda Kürdəmir, Xaçmaz, Şəki, İsmayıllı, Sumqayıt şəhərlərində çalışan gənc mədəniyyət işçiləri, universitetin tələbələri və könüllüləri iştirak ediblər.

Azərbaycan Milli Kitabxanası

Mərakeşin "Əl-İslah və Ət-Tənmiyə" qəzeti "Prezident İlham Əliyev Azərbaycanda 2019-cu ili "İmadəddin Nəsimi ili" elan edib" sərlövhəli məqalə dərc etdi. Məqalədə dövlət başçısının sərəncamı ilə böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin geniş şəkildə qeyd olunacağı diqqətə çatdırıldı, İmadəddin Nəsiminin 600 illik yubileyinin beynəlxalq miqyasda ilk dəfə UNESCO tərəfindən 1973-cü ildə keçirildiyi vurğulandı. Məqalədə, həmçinin böyük söz və dərin düşüncə sahibinin həyatı barədə məlumat da verilib.

Beynəlxalq Muzeylər Günü münasibəti ilə ölkəmizdə ənənəvi olaraq "Məktəblilər üçün muzey həftəsi" proqramı da reallaşır. Bu il proqrama mayın 12-də Muzey Mərkəzində keçirilən mərasimlə start verildi. Budəfəki layihə "Nəsimi ili" münasibətilə "Muzeylər və Nəsimi irsi" mövzusuna həsr olundu.

Yeni Azərbaycan Partiyası, Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının birgə təşkilatçılığı ilə böyük mütəfəkkir şair İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi münasibətilə tədbir keçirildi və "Ənəlhəqq" tamaşa-kompozisiyası təqdim olundu.

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY tərəfindən xatirə ili elan edilmiş böyük Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650-ci ildönümü və Türkiyənin görkəmli el sənətkarı Aşıq Veysəlin anadan olmasının 125-ci ildönümü münasibətilə aprelin 5-də Şimali Kiprin Sosial Elmlər Universitetində (SEU) anma mərasimi təşkil edilib. Türkiyənin Mədəniyyət və Turizm Nazirliyi, TÜRKSOY və SEU tərəfindən təşkil olunan mərasim rəsmi hissə, panel və bədii proqramdan ibarət olub. Rəsmi hissədə TÜRKSOY-un baş katibi, professor Düsen Kaseinov və SEU-nun rektoru, professor Mustafa Tümerin çıxışları dinlənilib. Çıxışlarda TÜRKSOY tərəfindən 2019-cu ilin Türk dünyasında "Nəsimi ili" və "Aşıq Veysəl ili" elan olunmasının əhəmiyyətindən danışılıb.

2018-ci ildə "Türk dünyasının mədəniyyət paytaxtı" olan Türkiyənin Kastamonu şəhəri bu missiyanı başa vurdu... Dekabrın 18-də şəhərdə TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının 36-cı dönəm toplantısı keçirildi. Toplantıda Azərbaycanın 2019-cu ildə böyük şairimiz İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi çərçivəsində "Nəsimi ili"nin keçirilməsi təklifi qəbul olundu. "Nəsimi ili"nin rəsmi açılışı martın 6-da Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Kitabxanası və TÜRKSOY-un təşkilatçılığı ilə qurumun Ankaradakı qərargahında gerçəkləşdi. Tədbirdə qurumun baş katibi Düsen Kaseinov, Türkiyə Prezidentinin baş müşaviri Yalçın Topçu, Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayev, Türkiyənin Mədəniyyət və Turizm nazirinin müavini Əhməd Haluk Dursun, Ankarada fəaliyyət göstərən xarici diplomatik korpusun təmsilçiləri, Azərbaycanın Ankaradakı səfirliyinin nümayəndələri, iki ölkənin digər rəsmiləri, elm, ədəbiyyat, mədəniyyət xadimləri, media mənsubları iştirak etdi.

"Nəsimi ili"nə həsr olunmuş daha bir layihə Təhsil Nazirliyi tərəfindən reallaşdırıldı. "Azərbaycan üçün öyrət" təhsil proqramı çərçivəsində "Təhsil avtobusu – Nəsimi" yay məktəbinin iştirakçıları bölgələrə səfərə çıxdı.

Aprelin 10-da Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində dahi şair və mütəfəkkir İmadəddin Nəsimiyə həsr olunmuş məruzə axşamı keçirilib. Mərkəzin rəhbəri Leyla Qasımova "İmadəddin Nəsimi və onun dövrü" adlı tədbirdə çıxış edərək böyük söz ustadının Azərbaycan ədəbiyyatında yerindən danışıb. Qeyd edilib ki, Azərbaycan Prezidentinin sərəncamına uyğun olaraq bu il ölkəmizdə "Nəsimi ili" elan edilib və şairin yaradıcılığına həsr olunmuş müxtəlif tədbirlər keçirilir. Sonra L.Qasımova tədbir iştirakçılarına almaniyalı alim, nəsimişünas Mixael Raynhard Hessi təqdim edib. Bildirilib ki, almandilli məkanda Nəsiminin tanınmış tədqiqatçısı mütəfəkkir şairin həyat və yaradıcılığına dair fundamental əsərlər yazıb, öz doktorluq dissertasiyasını bu mövzuya həsr edib. Təkcə Azərbaycan deyil, eyni zamanda bir sıra türk dillərinə dərindən yiyələnən M.R.Hess Nəsimi yaradıcılığının alman dilinə mükəmməl tərcüməçisi kimi də tanınır. Sonra Mixael Hess məruzəsini təqdim edib. M.Hess deyib ki, Nəsimi şeiriyyətinin bədii keyfiyyəti və fəlsəfi görüşlərinin dərinliyi onu öz müasirlərindən ciddi şəkildə fərqləndirir. Məruzə zamanı həmçinin Nəsimidən iqtibaslar əsasında onun dini-fəlsəfi görüşləri də təhlil edilib, müasir oxucu üçün şərhlər verilib. Qeyd edək ki, Mixael Hess Heydər Əliyev Fondunun dəstəyi ilə İmadəddin Nəsimi yaradıcılığı haqqında kitablar yazıb, onun tərcüməsində dahi şairin şeirlər kitabı alman dilində işıq üzü görüb. Alim hazırda Nəsimi yaradıcılığı haqqında yeni kitab üzərində işləyir.





İyunun 18-də Beynəlxalq Muğam Mərkəzində böyük şair İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş "Səsin sehri" bədii qiraət müsabiqəsinin final mərhələsi keçirildi. Müsabiqə Azərbaycan Televiziyasının layihəsi əsasında "Mədəniyyət" kanalı və Beynəlxalq Muğam Mərkəzinin təşkilatçılığı ilə gerçəkləşib. Dörd mərhələ üzrə on dörd iştirakçı Azərbaycanın klassik və müasir şairlərinin şeirlərini söyləyiblər. Yekun mərhələdə isə iştirakçılar Nəsiminin qəzəllərini qiraət ediblər.

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, ölkəmizin Macarıstandakı səfirliyi, Azərbaycan Milli Kitabxanası və Budapeştdəki Yunus Əmrə İnstitutunun birgə təşkilatçılığı ilə aprelin 24-də Budapeştdə dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş ədəbi-musiqili tədbir keçirilib. Yunus Əmrə İnstitutunun Budapeştdəki ofisində gerçəkləşən tədbir çərçivəsində Azərbaycan Milli Kitabxanasının fondlarında mühafizə olunan Nəsiminin əsərlərindən və onun haqqında ədəbiyyatlardan ibarət geniş kitab sərgisi açılıb. Kitab sərgisi ilə tanışlıqdan sonra Nəsimi haqqında qısa sənədli film nümayiş olunub.

Həmçinin Bəstəkarlar İttifaqında "Azərbaycan bəstəkarlarının yaradıcılığında Nəsimi mövzusu" adlı elmi konfrans işə başladı. Konfrans böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illiyinə həsr olunub.

"Nəsimi ili" çərçivəsində Türkiyənin Nevşehir şəhərində Azərbaycanın Təhsil Cəmiyyətinin təşəbbüsü, Hacı Bektaş Vəli Universiteti və Azərbaycan Universitetinin birgə təşkilatçılığı ilə şairin 650 illik yubileyinə həsr edilən elmi simpozium keçirildi. Tədbirə Bakı Uşaq Teatrı da qatıldı. Teatr açılış mərasiminin bədii hissəsində Cənubi Azərbaycanı təmsil edən musiqi qrupu ilə səhnəni paylaşan truppa "Arzular", "Fly to stay alive" kompozisiyalarını təqdim edib.

Almaniyanın paytaxtı Berlində Azərbaycan Bəstəkarlar İttifaqının təşkilatçılığı ilə böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illiyi ilə bağlı bəstəkarlarımızın əsərlərindən ibarət "In Memoriam Nasimi – 650 Jahre Imadeddin Nasimi" adlı konsert təqdim olunub.

Beynəlxalq Türk Akademiyasının təşəbbüsü və təşkilatçılığı ilə Qazaxıstanın paytaxtı Nur-Sultan şəhərində "Beynəlxalq Avrasiya Kitab Sərgisi – 2019" çərçivəsində "Nəsimi ili"nin açılışı olub. Mərasimdə Azərbaycan, Qazaxıstan, Türkiyə və Qırğızıstanın mədəniyyət və elm xadimləri iştirak edib. Akademiyanın prezidenti, professor Darxan Kıdıralı tədbirdə çıxış edərək bildirib ki, böyük mütəfəkkir İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi şərəfinə 2019-cu ilin Azərbaycanda "Nəsimi ili" elan edilməsi bütün türk dünyasında böyük məmnunluqla qarşılanıb. Vurğulanıb ki, Nəsimi öz yaradıcılığının miqyası ilə yalnız Azərbaycan xalqına məxsus olmaqdan çıxıb və bəşəriyyətin böyük dəyərinə çevrilib. Bütün bunları nəzərə alaraq Beynəlxalq Türk Akademiyası Qazaxıstanda "Nəsimi ili"nin açılışını etməklə yanaşı, onun seçilmiş şeirlərini qazax dilində nəşr edib. D.Kıdıralı bildirib ki, Nəsiminin əsərləri ilk dəfədir ki, qazax dilinə çevrilib. Həmçinin qazax dilində çap olunun "Azərbaycan ədəbiyyatı antologiyası"nda da şairin yaradıcılığına yer verilib. Bu, qazax oxucularının böyük söz ustadının mənəvi irsini mənimsəməsi baxımından unikal imkan olacaq. Ölkəmizin Qazaxıstandakı səfiri Rəşad Məmmədov Nəsiminin yaradıcılığından söz açaraq şairin 600 illik yubileyinin 1973-cü ildə Azərbaycanın rəhbəri Heydər Əliyevin təşəbbüsü ilə UNESCO səviyyəsində qeyd olunduğunu xatırladıb.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi, Bakı Uşaq Teatrı "Bir teatr, bir festival" layihəsi çərçivəsində 3-cü festivalı "Nəsimi ili"nə həsr etdi. "Nəsimi ili – Nəsimi dili" adlı festivalda Bakı Uşaq Teatrının yaradıcı heyəti Nəsimi poeziyasından nümunələrlə çıxış etdi, müstəqil qəzəl təqdimatları və müxtəlif kompozisiyalar nümayiş etdi.

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü, böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 və UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının yaranmasının 25 illiyi münasibətilə mayın 12-də Ankarada muğam konserti keçirildi. Azərbaycanın Türkiyədəki səfirliyi, UNESCO üzrə Azərbaycan və Türkiyənin milli komissiyaları tərəfindən birgə təşkil olunan konsertdə Xalq artisti Mənsum İbrahimovun rəhbərlik etdiyi "Qarabağ" muğam qrupu musiqisevərlərin görüşünə gəlmişdi. Türkiyə Prezidenti Administrasiyası Simfonik Orkestrinin konsert salonunda təşkil olunmuş konsertdə qrupu Əməkdar artist Əyyub Quliyevin dirijorluğu ilə Ankara simli alətlər dərnəyinin kamera orkestri müşayiət edirdi. Rəsmi hissədə Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim, Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri, UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının baş katibi Elnur Sultanov və UNESCO üzrə Türkiyə Respublikası Milli Komissiyasının sədri, professor Öcal Oğuz çıxış etdilər.

